

**Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...**

**Ümummilli Lider HEYDƏR ƏLİYEV**

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti

31 yanvar 2024-cü il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

**Sivas Cümhuriyyət Universitetinin rektoru Alim Yıldız ilə görüş** →Səh.3

**BDU ilə "Times Higher Education" Beynəlxalq Reytinq Agentliyinin nümayəndələri arasında görüş** →Səh.4

**BDU 40-dan çox ölkənin 150-dən artıq universiteti ilə əməkdaşlıq edir** →Səh.4

**Bu il THE qlobal reytinqinə Azərbaycan ali təhsil müəssisələrindən yalnız BDU daxil olub** →Səh.6

**BDU-nun İctimai Nəzarət Şurasının üzvləri və KİV nümayəndələri imtahan sessiyasını izləyiblər** →Səh.6

**BDU ilə Özbəkistan Elmlər Akademiyasının Mirzə Uluqbəy adına Astronomiya İnstitutu arasında əməkdaşlıq müqaviləsi imzalanıb** →Səh.8



**Gürcüstanın təhsil, elm və gənclər nazirinin rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da** →Səh.4



**20 Yanvar faciəsinin 34-cü ildönümünə həsr olunmuş sərgi** →Səh.5



**BDU ilə Bioloji Müxtəlifliyin Qorunması Xidməti arasında anlaşma memorandumu imzalanıb** →Səh.6



**Görkəmli alim və yazıçı Mir Cəlal Paşayevin alman dilinə tərcümə edilmiş "Füzuli sənətkarlığı" kitabının təqdimatı** →Səh.7



**Azərbaycanda Özbəkistan Elm və Mədəniyyət Günləri çərçivəsində BDU-nun elmi ictimaiyyəti ilə görüş** →Səh.8



## BDU-da 20 Yanvar şəhidlərinin anım mərasimi

***Yanvarın 19-da Bakı Dövlət Universitetində 20 Yanvar faciəsinin 34-cü ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.***

Tədbirdən əvvəl BDU kollektivi 2 saylı tədris binasının qarşısında şəhidlərin xatirəsinə ucaldılmış abidənin önünə əklil qoyub, gül dəstələri düzüb. Sonra tədbir böyük akt zalında davam edib.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Mərasim iştirakçıları torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edib. Sonra 20 Yanvar hadisələrinə həsr olunmuş videoçarx nümayiş olunub.

BDU-nun rektoru Elçin Babayev bildirib ki, 20 Yanvar Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda qəhrəmanlıq səhifəsi kimi daxil olub. 20 Yanvar xalqımızın müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Keçmiş sovet ordusunun həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi hərbi təcavüz insanlıq əleyhinə törədilmiş ən ağır cinayətlərdən biri kimi bəşər tarixinə həkk olunub. Rektor vurğulayıb ki, doğma Vətəninin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək, şəhidlik zirvəsinə ucaldılar.

Bu hadisə Azərbaycan milli kimliyinin formalaşmasına həlledici təsir göstərdi, dövlət müstəqilliyinin bərpa edilməsində dönüş nöqtəsi oldu. Məhz bu faciədən sonra milli azadlıq hərəkatı tam siyasi reallığa çevrilib, dönməz xarakter alıb, xalq öz gələcəyini yalnız müstəqil Azərbaycanda görüb. O zaman yalnız Ümummilli Liderimiz Heydər Əliyev siyasi iradə nümayiş etdirərək və Moskvadakı Azərbaycan nümayəndəliyinə gələrək, SSRİ rəhbərliyinin törətdiyi bu cinayəti qətiyyətlə ittiham edib. Azərbaycan rəhbərliyinə qayıdışdan sonra, 1994-cü il martın 29-da Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 20 Yanvar faciəsinə ali qanunvericilik orqanı - Milli Məclis səviyyəsində ilk dəfə hüquqi-siyasi qiymət verilib. Elçin Babayev diqqətə çatdırıb ki, bu gün xatirəsini daim əziz və uca tutduğumuz şəhidlərimizin ruhu şaddır. Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hərbi və siyasi iradəsi, qüdrətli Ordumuzun rəşadəti, xalqımızın həmrəyliyi nəticəsində 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Qarabağ zəfəri ilə şəhidlərimizin intiqamı alındı və onların qanı yerdə qalmadı.

Ötən ilin sentyabr ayında Ordumuzun lokal xarakterli antiterror əməliyyatı ilə Qarabağ iqtisadi rayonunda olan separatizm yuvası məhv edildi və milli suverenliyimiz bərpa olundu.

*(Ardı 5-ci səhifədə)*

**BDU son 4 ildə "Scopus"da indekslənən elmi məqalələrin sayına görə Cənubi Qafqaz regionunda da lider mövqedədir** →Səh.3

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciəti

*Bu il Azərbaycanda "Heydər Əliyev İli" elan edilmişdir. Ulu Öndərin 100 illiyi ölkə üzrə qeyd edildi. Mən mənim üçün bu əziz günü - atamın doğum gününü Şuşada keçirdim. Şuşanın mərkəzi meydanında Azərbaycan xalqına müraciət edərək öz ürək sözlərimi bildirdim və dedim ki, Ulu Öndərin xatirəsinə ən böyük hörmət əlaməti bizim əməllərimizdir.*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciəti***

- Əziz həmvətənlər.

2023-cü il arxada qalır. 2023-cü ildə ölkəmizin həyatında bir çox önəmli hadisələr baş vermişdir. Ancaq o hadisələrin arasında dövlət suverenliyimizin bərpası Azərbaycan xalqının yaddaşında əbədi qalacaqdır. 2023-cü ildə birgünlük antiterror əməliyyatı nəticəsində Azərbaycan öz dövlət suverenliyini tam bərpa etmişdir, işğalçı qüvvələrin Azərbaycan ərazisindən çıxarılması təmin edilmişdir, düşmən ordusu məhv edilmiş, düşmənin hərbi texnikası məhv edilmiş və ya qənimət kimi götürülmüşdür. Bu tarixi hadisə münasibətilə bir daha bütün Azərbaycan xalqını ürəkdən təbrik etmək istəyirəm.

2020-ci ildə İkinci Qarabağ müharibəsi başa çatanda bizim Bayrağımız Şuşada və azad edilmiş digər ərazilərdə qaldırılanda biz hamımız yaxşı bilirdik ki, işimiz yarımçıq qalıb. Azərbaycan öz dövlət suverenliyini tam bərpa etməli idi və bunu etdi.

Üç il ərzində biz bunu sülh yolu ilə həll etmək istəyirdik. Hesab edirdik ki, Ermənistan rəhbərliyi İkinci Qarabağ müharibəsinin nəticələrini düzgün təhlil edərək özü üçün nəticə çıxaracaq. Əfsuslar olsun ki, bu, belə olmadı. Üç il ərzində Ermənistan öz üzərinə götürdüyü öhdəlikləri nəinki yerinə yetirmədi, hətta əksinə, bizə qarşı yeni hərbi təxribatlar hazırladı və onları həyata keçirdi. Qanunsuz olaraq torpağımızda məskunlaşmış 15 minlik Ermənistan ordusu Qarabağdan çıxarılmadı. Əksinə, yeni silahlar, sursatlar, hərbi texnika, minalar Qarabağa gətirildi və bizə qarşı mina terroru davam etdirildi.

Təbii ki, biz bu vəziyyətlə barışa bilməzdik. Dəfələrlə Ermənistan rəhbərliyinə və onun arxasında dayanmış Qərb ölkələrinə xəbərdarlıq etmişdik ki, bu vəziyyət davam edə bilməz. Ya separatçı rejim özünü buraxmalıdır, Ermənistan ordusu bizim ərazimizdən çıxarılmalıdır, ya da ki, biz güc tətbiq edərək dövlət suverenliyimizi özümüz bərpa edəcəyik. Əfsuslar olsun ki, bizim sözümüzə diqqət yetirilmədi. Sentyabrın 19-da başlamış və cəmi bir gün, ondan da az davam edən antiterror əməliyyatı Azərbaycan Ordusunun tam Zəfəri ilə nəticələnmişdir. Separatçı rejim çökmüş, bizim qarşımızda diz çökmüş, ağ bayraq qaldırmış, təslim olmuş, torpaqlarımızdan əbədi olaraq çıxarılmış və tarixin zibilxanasına atılmışdır. Bununla Azərbaycanda separatizmin kökü kəsildi və separatizm - bu bəla bizim torpağımızda bir daha baş qaldıra bilməz.

Azərbaycan Ordusu bir daha peşəkarlıq, qəhrəmanlıq, əsgər və zabitlərimiz fədakarlıq göstərmişlər. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq. Onu bildirməliyəm ki, şəhidlərimizin qanı yerdə qalmadı. Həm Birinci, həm İkinci Qarabağ müharibəsi, həm antiterror əməliyyatı zamanı şəhid olmuş əsgər, zabitlərimizin, mülki şəxslərin, Xocalı qurbanlarının qisası döyüş meydanında alınmışdır.

2023-cü ilin aprel ayında isə biz ərazi bütövlüyümüzü tam bərpa etmişdik. Azərbaycan-Ermənistan sərhədinin Laçın istiqamətində sərhəd-buraxılış məntəqəsi qurulmuş və o gündən bəri Azərbaycanın ərazi bütövlüyü tam bərpa edilmişdir. Azərbaycan xalqı yaxşı xatırlayır ki, dünyada, xüsusilə Qərb ölkələrində Ermənistanın arxasında dayanan, onlara daim dəstək göstərən ölkələrdə nə qədər hay-küy qaldırılmışdı, bizə qarşı əsassız ittihamlar irəli sürülmüşdü. Heç bir ittiham, heç bir təzyiq bizim iradəmizə təsir edə bilmədi. Mən o vaxt da demişdim ki, heç kim bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq, öz sərhədimizi özümüz nəzarətə götürmüşük və heç kimə imkan verməyək ki, bizim torpağımızda at oynatsın. Bu, bizim torpağımızdır, bu torpağın sahibi bizik, nə lazım biliriksə, onu da edəcəyik, beynəlxalq hüquq çərçivəsində, o cümlədən beynəlxalq humanitar hüquq çərçivəsində. O da dərs olmadı işğalçılara, o da dərs olmadı onların arxasında dayanan anti-Azərbaycan qüvvələrə. Ona görə sentyabr ayında keçirilmiş antiterror əməliyyatı labüd idi və biz bunu keçirdik, bununla da fəxr edirik, qürur hissi keçiririk. Hər bir Azərbaycan vətəndaşı, dünyada yaşayan hər bir azərbaycanlı haqlı olaraq qürur hissi keçirir.

Qarabağ və Şərqi Zəngəzur bu gün böyük tikinti meydançasına çevrilmişdir. Biz şəhərlərimizi, kəndlərimizi yenidən qururuq və artıq bu il 5 minə yaxın keçmiş köçkün öz doğma torpaqlarına qayıtmışdır. Bu ilin mart ayında - Novruz bayramı ərəfəsində Talış kəndində bayram sevinci yaşandı, köçkünlər öz doğma evlərinə qayıtmışdılar. Avqust ayında Füzuli şəhəri və Zabux kəndi bayram içində idi. Bu il Laçın şəhərinə Müstəqillik Gününü qeyd edərkən köçkünlər qayıtmışdır - 28 May tarixində Laçında böyük bayram günü idi. Ondan əvvəl, bildiyiniz kimi, Ağalı kəndində köçkünlər məskunlaşmış və beləliklə, beş yaşayış məntəqəsində indi həyat bərpa edilib.

Onu da bildirməliyəm ki, 2024-cü ildə bir neçə yaşayış məntəqəsinə keçmiş köçkünlər, qaçqınlar qayıdacaqlar. Bu müjdəni mən bu gün onlara vermək istəyirəm və bildirmək istəyirəm ki, il ərzində Kərkicahan, Malıbəyli, Turşsu kəndləri tam bərpa edilib keçmiş köçkünlərin sərəncamına veriləcək. Eyni zamanda, il ərzində Xocalı və Xankəndi sakinləri də öz evlərinə qayıdacaqlar.

Bundan başqa, bir neçə yaşayış məntəqəsi də keçmiş köçkünləri qəbul etməyə hazır olacaq. Biz - bu torpaqların sahibləri qurub-yaradanıq. Biz qurub-yaradan xalqıq. Ermənilər 30 il ərzində bizim torpaqlarımızı dağıdaraq bütün evləri, tarixi binaları, məscidlərimizi yerlə-yeksan etmiş, bizə qarşı soyqırımı, eyni zamanda, urbisid, ekosid törətmişlər. Bizim çaylarımız zəhərləndi, bizim meşələrimiz qırıldı. Bütün bunları edən Ermənistan dövləti idi. Əfsuslar olsun ki, bu cinayətlərə görə onlar bu günə qədər Qərbdə qınaq obyektinə çevrilmədi.

Bu gün Qərbdə ikili standartlar hökm sürür. Azərbaycan xalqı bunu yaxşı bilir və eyni zamanda, yaxşı bilir ki, biz bütün təzyiqlərə, bütün hədə-qorxulara, əsassız ittihamlara baxmayaraq bildiyimizi edəcəyik. Necə ki, etmişik, bundan sonra da edəcəyik. Ermənistan rəhbərliyi də bu tarixi dərslərdən nəticə çıxarmalıdır və özünü elə aparmalıdır ki, bizim qəzəbimizə tuş gəlməsin.

Biz bu il iqtisadi sahədə öz siyasətimizi uğurla aparmışıq. Müstəqil iqtisadiyyat bizə imkan verir ki, heç kimdən asılı olmayaq, heç bir beynəlxalq maliyyə institutundan asılı olmayaq və asılı deyilik.

Biz Ordumuzu böyük dərəcədə gücləndirmişik, həm peşəkarlıq artdı, yeni silahlı birləşmələr yaradıldı və bu silahlı birləşmələr digər silahlı birləşmələrlə birlikdə antiterror əməliyyatında çox böyük peşəkarlıq göstərmişlər. Yeni silahlar, hərbi texnika alındı, gətirildi, bir çox yeni kontraktlar imzalandı. Onu da bildirməliyəm ki, gələn il hərbi təyinatlı yerli istehsal böyük dərəcədə artacaq. Gələn il həm dövlət, həm özəl sektor tərəfindən hərbi təyinatlı məhsulların istehsalına ən azı bir milyard manat sərmayə qoyulacaq. Beləliklə, biz nəinki özümüzü əsas vasitələrlə təmin edəcəyik, Azərbaycan dünya miqyasında çox ciddi ölkəyə çevriləcək, bizim hərbi təyinatlı məhsulların həcmi və sayı böyük dərəcədə artacaq.

Bizim beynəlxalq nüfuzumuz gündən-günə artır. Dekabr ayında dünyanın ən böyük beynəlxalq konfransının Azərbaycanda keçirilməsi haqqında bütün dünya ölkələri yekdil qərar qəbul etmişlər - COP29 gələn il Azərbaycanda keçiriləcək. Bu, bizə dünya ictimaiyyəti tərəfindən göstərilən böyük hörmət və rəğbətdir, eyni zamanda, bizim yaşıl enerjiyə keçidimizə olan böyük qiymətdir. Yaşıl enerji keçidi bizim prioritet məsələmizdir və bu il Azərbaycanda bölgənin ən böyük bərpaolunan elektrik enerjisi stansiyası istifadəyə verilmişdir - 230 meqavat gücündə günəş elektrik stansiyası artıq bizim enerji sistemimizə tam inteqrasiya edilmişdir. İmzalanmış kontraktlar və anlaşma memorandumları əsasında yaxın bir neçə il ərzində Azərbaycanda 10 min meqavat bərpaolunan enerji növləri, enerji mənbələri yaradılacaq və bu sahədə də Azərbaycan dünyada liderlər sırasında olacaqdır. Əlbəttə ki, COP29 - iqlim dəyişikliyinə həsr edilmiş bu beynəlxalq konfransın Azərbaycanda keçirilməsi bir daha bu sahədə bizim uğurlarımızı əyani şəkildə göstərir.

Bu il Azərbaycanda "Heydər Əliyev İli" elan edilmişdir. Ulu Öndərin 100 illiyi ölkə üzrə qeyd edildi. Mən mənim üçün bu əziz günü - atamın doğum gününü Şuşada keçirdim. Şuşanın mərkəzi meydanında Azərbaycan xalqına müraciət edərək öz ürək sözlərimi bildirdim və dedim ki, Ulu Öndərin xatirəsinə ən böyük hörmət əlaməti bizim əməllərimizdir. Mən hesab edirəm ki, oktyabrın 15-də Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda, Xankəndidə qaldırdığım Dövlət Bayrağımız Ulu Öndərin xatirəsinə ən böyük hörmətin əlamətidir. Noyabrın 8-də Xankəndinin mərkəzi meydanında Zəfər paradımız Ulu Öndərin xatirəsinə ən böyük hörmətimizin əlamətidir.

Bu gün bütün dünya azərbaycanlıları haqlı olaraq müstəqil Azərbaycanla fəxr edirlər. Bu gün dünya azərbaycanlıları Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü tam yeni bir ovqatla qeyd edirlər. Artıq üç ildir ki, dünya azərbaycanlıları bütün Azərbaycan xalqı kimi ruh yüksəkliyi ilə yaşayır, başını dik tutub yaşayır, alnıaçıq, üzüağ yaşayırlar.

Tarixi Zəfərimiz - İkinci Qarabağ müharibəsindəki Zəfər, antiterror əməliyyatı, işğalçılardan azad olunmağımız, separatçı rejimin çökməsi bütün azərbaycanlıları haqlı olaraq bir araya, bir yumruq halına gətirir. "Dəmir yumruq" bizim Zəfər salnaməmizin rəmzi idi. Bu gün, eyni zamanda, "Dəmir yumruq" birliyimizin rəmzidir və Azərbaycan xalqını, bütün dünya azərbaycanlılarını əmin etmək istəyirəm ki, "Dəmir yumruq" hər zaman yerində olacaq.

Əziz bacılar və qardaşlar, sizə cansağlığı, uğurlar arzulayıram. Arzu edirəm ki, 2024-cü il də ölkəmiz üçün, xalqımız üçün uğurlu olsun. Bayramınız mübarək olsun!

# BDU rektoru qış imtahan sessiyasının gedişi ilə tanış olub



***Yanvarın 9-da BDU-nun rektoru Elçin Babayev qış imtahan sessiyasının gedişi ilə tanış olub.*** Rektor BDU-nun müxtəlif korpuslarında imtahanları izləyib, tələbələrin sessiyanın təşkili ilə bağlı fikirlərini dinləyib. Elçin Babayev imtahan suallarının tədris proqramına uyğunluğunu yoxlayıb, daha sonra imtahan nəzarətçiləri və müəllimlərə müvafiq tapşırıqlarını verib.

Qeyd edək ki, BDU-da qış imtahan sessiyası yanvarın 7-də başlayıb. İmtahanlar yazılı və şifahi olmaqla iki növbədə (saat 10:00-13:00 və 14:00-17:00) keçirilib.

Bakalavriatura səviyyəsində 937 qrup üzrə 20 mindən çox, magistratura səviyyəsində isə 235 ixtisaslaşma üzrə 2014 tələbə imtahan verir. Sessiyanın gedişinə operativ nəzarət, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı təmin etmək məqsədilə İmtahan Qərargahı və Apelyasiya Komissiyası yaradılıb. Komissiya sessiya müddətində imtahanların gedişi ilə əlaqədar ərizə, təklif, Elm və Təhsil Nazirliyinin "Qaynar xətt"i vasitəsilə daxil olmuş şikayətlərin araşdırılmasını təmin edir.

## BDU son 4 ildə “Scopus”da indekslənən elmi məqalələrin sayına görə Cənubi Qafqaz regionunda da lider mövqedədir

***Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi 2020-2023-cü illər ərzində “Scopus”da indekslənən jurnallarda dərc olunan elmi işlərin təhlilinə əsasən Elm və Təhsil Nazirliyinə (ETN) tabe ilk 5 universitetin göstəricilərini təqdim edib.***

BDU son 4 ildə 2627 məqalə sayı ilə ən yüksək ümumi nəticə göstərib. Universitet qeyd olunan illər ərzində elmi məqalələrin sayına görə həm də Cənubi Qafqaz regionunda lider mövqe tutub. Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU), Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) və Azərbaycan Texniki Universiteti (AzTU) dərc olunan məqalələrin sayında hər il artım nümayiş etdirib.

Yuxarıda adları qeyd olunan Elm və Təhsil Nazirliyinə tabe 3 ali təhsil müəssisəsi (BDU, ADNSU və UNEC) həm də ölkə üzrə ilk 3-lükdə yer alıb.

Qeyd olunan ali təhsil müəssisələrinin elmi nəşrlərinin sayı 2023-cü ildə əhəmiyyətli dərəcədə artıb. Bu nəticəni 2023-cü ilin iyun ayında Elm və Təhsil Nazirliyinin təşəbbüsü ilə Azərbaycanın özəl və dövlət ali təhsil müəssisələrinə, eləcə də elmi-tədqiqat institutlarına dünyanın ən böyük elmmetrik bazalarından olan “Scopus” və “Science Direct”ə çıxış imkanlarının verilməsi ilə əlaqələndirmək olar.

Bu illərdə qeyd olunan ali təhsil müəssisələrinin ümumilikdə 5157 tədqiqat işi bazaya daxil edilib.

## BDU “Web of Science” və “Scopus”da çap olunmuş elmi əsərlərin sayı və onlara edilən istinadlara görə ölkə lideridir

***Elmin inkişafı Azərbaycanda dövlət siyasətinin ayrılmaz tərkib hissəsidir. Beynəlxalq münasibətlərdə təkcə siyasi-iqtisadi deyil, eyni zamanda elmi-innovativ xarakterli göstəricilər müstəsna rola malikdir.*** Elmin inkişaf səviyyəsi ölkəmizin sosial-iqtisadi qüdrətinin, milli təhlükəsizliyinin, bütün sferalarda mədəni tərəqqinin, təhsildə yüksək keyfiyyətin təminatı baxımından əhəmiyyətlidir. Azərbaycanda elmin inkişaf istiqamətləri müəyyənləşdirilərkən maddi-mənəvi dəyərlərin qorunması ilə yanaşı, beynəlxalq arenaya sürətli inteqrasiyası da xüsusi diqqətdə saxlanır. Aparılan tədqiqatların səmərəliliyinin artırılmasına, onların nəticələrinin sosial-iqtisadi və sənaye-istehsalat sahələrində tətbiqinin təmin edilməsinə, tədris prosesinə bağlılığına önəm verilir.

Bu istiqamətdə ali təhsil müəssisələrinin üzərinə də mühüm vəzifələr düşür. BDU Azərbaycanda elmi-texniki potensialın formalaşmasında, qorunmasında, səmərəli istifadə edilməsində yaxından iştirak edir və bu istiqamətdə aparıcı qüvvələrdən birinə çevrilib. BDU-da elmi yeniliklərin və innovasiyaların tədris prosesinə tətbiq edilməsinə, “Universitet-sənaye” tərəfdaşlığı çərçivəsində fəaliyyətin qurulmasına, bu sahədə ölkədaxili və beynəlxalq əməkdaşlığın genişləndirməsinə, dünyanın tanınmış ali təhsil və elmi müəssisələri ilə tələbə-müəllim-tədqiqatçı mübadiləsinə xüsusi diqqət edilir.

Yaxın gələcəkdə “Tədqiqat Universiteti” statusunu almağa hazırlaşan BDU-da həyata keçirilən işlər əvvəlki illərdə olduğu kimi, 2023-cü ildə də öz bəhrəsini verib.

BDU-nun Hirş indeksi 2023-cü ildə 6 bal artaraq 60-a çatıb

“Clarivate Analytics” Beynəlxalq İnformasiya Agentliyinin rəsmi məlumatına əsasən, BDU-nun Hirş indeksi 2023-cü ildə 6 bal artaraq 60 olub. Bununla BDU yenə də Azərbaycan universitetləri arasında öz liderliyini qoruyur. Hər bir əsərə istinadların orta sayı isə 6.12-dən 7.46-ya qədər yüksəlib.

Agentliyin rəsmi məlumatına əsasən, BDU-nun əməkdaşları, doktorant və tələbələri tərəfindən “Web of Science” bazasına daxil olan dərgilərdə artıq 4213 elmi əsər nəşr edilib. Bu əsərlərə 31000-dən çox istinad olunub. Qeyd edək ki, fizika, riyaziyyat, kimya, biologiya, texnika, hüquq, filologiya, iqtisad, Yer elmləri, pedaqogika, psixologiya, siyasi elmlər, tarix, fəlsəfə kimi elm sahələri üzrə 200-ə yaxın mövzuda tədqiqatlar aparılan BDU-da interdissiplinar və multidissiplinar tədqiqatlara üstünlük verilir.

Fizika və astronomiya, kimya, riyaziyyat, materialşünaslıq, kompüter elmləri, tibb, biologiya, ekologiya, sosial elmlər, humanitar elmlər və elmin müxtəlif sahələrinin qovşağında olan multidissiplinar sahələr üzrə “Scopus” bazasına daxil olan dərgilərdə isə indiyə qədər ümumilikdə 10 613 elmi əsər dərc olunub. Fizika və astronomiya, materialşünaslıq, kimya və riyaziyyat üzrə dərc olunmuş məqalələrin sayı və onlara edilmiş istinadlar digər sahələrlə müqayisədə daha çoxdur.

Klassik universitet olan BDU-da fundamental elmi məktəblərlə yanaşı, multidissiplinar tətbiqi elmlər, o cümlədən mühəndislik üzrə yaxşı elmi məktəblər formalaşıb. Yalnız 2023-cü ildə bu elmi məktəblərdə BDU-nun 12 gənc alimi dissertasiya işlərini tamamlayaraq uğurla müdafiə edib. “Scopus” bazasındakı jurnallarda dərc olunmuş nəticələrin 15%-dən çoxu məhz bu sahələrin payına düşür.

Bu gün BDU tələbəsi elmi seminarlarda və konfranslarda məruzələrlə çıxış edir, müxtəlif elmi-tədqiqat layihələrinə cəlb olunur. Tədris prosesində tələbələrə alınmış elmi nəticələr haqqında məlumatlar verilir. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin 6 elmi-tədqiqat institutu ilə BDU arasındakı sıx əlaqələr tələbələrin bilavasitə elmi-tədqiqat mühitində formalaşmasına, yeni prioritet elmi istiqamətlərdə elmi məktəblərin yaranmasına şərait yaradıb.

2023-cü ildə bazaya daxil olan jurnallarda BDU tərəfindən 623 elmi əsər dərc olunub (qeyd edək ki, məlumatlar 2024-cü ilin ilk yarısınadək tamamlanacaq). Dərc edilmiş məqalələrdən 329-u tam açıq girişə malikdir.

Xatırladaq ki, “Scopus” bazasına daxil olan dərgilərdə dərc olunmuş məqalə və onlara istinadların sayına görə BDU Azərbaycan universitetləri arasında yenə də liderdir.

Bir əsrdən çox tarixə malik olan BDU-nun elmi məktəblərinin yetirmələri bu gün Respublikanın və xarici ölkələrin bir çox universitet, elmi-tədqiqat institutu və mərkəzlərində uğurlara imza atmaqdadırlar. Onlar BDU-da aparılan tədqiqatları davam etdirir, alınmış elmi nəticələrin dünya elm arenasında tanıdılması və sənayedə tətbiqi istiqamətində aktiv fəaliyyət göstərirlər.

## Sivas Cümhuriyyət Universitetinin rektoru Alim Yıldız ilə görüş



***Yanvarın 16-da BDU-nun rektoru Elçin Babayev Türkiyə Respublikasının Sivas Cümhuriyyət Universitetinin rektoru Alim Yıldızla görüşüb.***

Rektor Elçin Babayev BDU ilə qardaş Türkiyənin ali məktəbləri arasında elm-təhsil əlaqələrinin son illər daha da intensivləşməsinin sevindirici olduğunu qeyd edib. O bildirib ki, Sivas Cümhuriyyət Universiteti ilə də anlaşma memorandumu və “Erasmus+ KA 171” proqramı çərçivəsində uğurlu əməkdaşlıq davam edir, fizika üzrə ikili diplom proqramı hazırlanır. Rektor fizika ilə yanaşı, kompüter elmləri, biotexnologiya, kimya, riyaziyyat, ekologiya, tarix, ədəbiyyat istiqamətləri üzrə də geniş əməkdaşlıq imkanlarının olduğunu xatırladıb. Qeyd edib ki, bu sahələr üzrə BDU ilə Sivas Cümhuriyyət Universiteti ortaq tədqiqatlar apara, birgə layihələr həyata keçirə bilər.

Sivas Cümhuriyyət Universitetinin rektoru Alim Yıldız da BDU ilə ortaq layihələrə, xüsusilə müəllim-tələbə mübadiləsinin, müxtəlif sahələr üzrə elmi tədqiqatların genişlənməsinə ehtiyac olduğunu bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## 2023-cü ildə BDU 2 ikili diplom proqramı imzalayıb

***2023-cü ildə BDU-nun beynəlxalq əlaqələri son illərin uğurlu inkişaf dinamikasına uyğun artıb.***

2023-cü ildə BDU-da 2 ikili diplom layihəsinin icrasına başlanılıb. Belə ki, 2023-cü il 24 may tarixində BDU və İsrailin Yerusəlim İbrani Universiteti (HUJI) arasında”Biotexnologiya” ixtisaslaşması üzrə ikili diplom proqramı müqaviləsi imzalanıb. Sözügedən layihə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində maliyyələşdirilir. 2023-cü il dekabr ayının 8-də BDU ilə Çin Xalq Respublikasının (ÇXR) Anhui Universiteti arasında bakalavriat pilləsində “Filologiya (Çin dili və ədəbiyyatı)” ixtisası üzrə ikili diplom proqramı müqaviləsi imzalanıb. Bu layihə ÇXR-in Dil Tədrisi Əməkdaşlıq Mərkəzi tərəfindən maliyyələşdiriləcək. Bununla da BDU-nun ikili diplom proqramlarının sayı 12-yə çatıb.

# Gürcüstanın təhsil, elm və gənclər nazirinin rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da

***Yanvarın 25-də Azərbaycanda səfərdə olan Gürcüstanın təhsil, elm və gənclər naziri Giorgi Amilaxvarinin rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da olub.***

Rektor Elçin Babayev bildirib ki, Gürcüstanın təhsil, elm və gənclər naziri Giorgi Amilaxvarinin başçılıq etdiyi nümayəndə heyətinin səfəri xalqlarımız arasında təhsil və elm sahələrində möhkəm dostluq və əməkdaşlığa sübutdur: "Bu səfər Azərbaycan və Gürcüstan arasında mövcud olan əlaqələri möhkəmləndirməklə yanaşı, təhsil və elm sahələrində əməkdaşlıq, akademik mübadilə və birgə tədqiqat təşəbbüsləri üçün yeni imkanlar açacaq. Biz birlikdə tələbələrimiz üçün daha parlaq gələcək qura və ölkələrimizdə elm və təhsilin inkişafına töhfə verə bilərik".



Rektor Elçin Babayev BDU ilə Gürcüstanın ali təhsil müəssisələri arasında əməkdaşlığı genişləndirməyin zəruri olduğunu bildirib: "BDU məmnuniyyətlə Gürcüstanın nüfuzlu elm və ali təhsil müəssisələri ilə dinamik əməkdaşlığa hazırdır. Bu tərəfdaşlıq qarşılıqlı müəllim, tələbə mübadiləsini, birgə layihələrin həyata keçirilməsini, müxtəlif istiqamətlər üzrə ikili diplom proqramlarının imzalanmasını əhatə edə bilər".

Gürcüstanın təhsil, elm və gənclər naziri Giorgi Amilaxvari Azərbaycanın ən böyük və qədim universitetində olmaqdan məmnunluğunu ifadə edib, Gürcüstan-Azərbaycan əlaqələrinin son 30 ildə sürətlə və yüksək səviyyədə inkişaf etdiyini deyib. Nazir qeyd edib ki, Azərbaycanla Gürcüstan arasında elm və təhsil sahəsində əməkdaşlığın perspektivləri, müəllim və tələbə mübadiləsi, birgə elmi tədqiqatların aparılması xalqlarımızın inkişafına öz töhfəsini verəcək. Nazir BDU-da keçirilən görüşün yeni ideya və layihələrin reallaşdırılmasına təkan verəcəyini bildirib.

Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru Ülkər Səttarova bildirib ki, ali təhsil müəssisələrinin beynəlxalq əlaqələrinin möhkəmləndirilməsi vacib məsələdir. Giorgi Amilaxvarinin rəhbərlik etdiyi nümayəndə heyətinin səfəri çərçivəsində təhsil, elm sahələrində əməkdaşlığın yeni mərhələyə yüksəlməsi istiqamətində müzakirələr aparılıb. O qeyd edib ki, Azərbaycanın ali təhsil müəssisələrinin flaqmanı olan BDU bu prosesdə önəmli rol oynaya bilər. BDU-da gürcü dili, regionşünaslıq və qafqazşünaslıq ixtisasları tədris olunur.

Gürcüstanın Azərbaycandakı səfiri Zurab Pataradze səfərin önəmini yüksək qiymətləndirib və Azərbaycanla siyasi, iqtisadi sahədə olduğu kimi, humanitar, mədəni əlaqələrin bundan sonra daha da inkişaf etdiriləcəyini deyib.

Daha sonra Gürcüstanın təhsil, elm və gənclər nazirinin I müavini Aleksandr Tsuladze, Tbilisi Dövlət Universitetinin rektoru Cava Samuşia, Gürcüstan Texniki Universitetinin rektoru David Qurqenidze, Kutaisi Beynəlxalq Universitetinin rektoru Aleksandr Tevzadze, BDU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov Bakı Dövlət Universitetinin Gürcüstanın ali təhsil və digər müvafiq müəssisələri ilə sıx əməkdaşlıq əlaqələrinin genişləndirilməsi üzrə təkliflərini səsləndiriblər.

Sonda nazir Giorgi Amilaxvari BDU-da gürcü dili ixtisası üzrə təhsil alan tələbələrin suallarını cavablandırıb.

# BDU və Çinin Renmin Universitetinin əməkdaşları arasında onlayn görüş

***Yanvarın 18-də BDU və Çin Xalq Respublikasının (ÇXR) Renmin Universitetinin əməkdaşları arasında onlayn görüş keçirilib.***

Görüşdə BDU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov, BDU nəzdində Konfutsi İnstitutunun çinli direktoru Vanq Haoqianq, Tarix fakültəsinin dekanı İbrahim Zeynalov, dekan müavini Kəmalə Nəcəfova, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin dekanı Laçın Abışlı, dekan müavini Kənan Vəkilov, Renmin Universitetinin Biznes Məktəbinin MBA Proqram Mərkəzinin beynəlxalq əlaqələr üzrə direktoru Zhang Ying, Tarix məktəbinin Arxeologiya və muzeyşünaslıq kafedrasının dosenti Chen Xiolu, Beynəlxalq mübadilə bürosunun direktor müavini Lin Yuan və əməkdaşı Lu Venqin iştirak ediblər.

BDU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov görüşün iki ali təhsil müəssisəsi arasında əməkdaşlığa daha da təkan verəcəyini bildirib. BDU-nun beynəlxalq əlaqələri, dünyanın qabaqcıl ali təhsil müəssisələri ilə həyata keçirilən ikili diplom proqramları haqqında məlumat verən Rauf Həsənov Renmin Universiteti ilə əməkdaşlığın perspektivlərindən danışıb.

Tarix fakültəsinin dekanı İbrahim Zeynalov rəhbərlik etdiyi fakültə haqqında görüş iştirakçılarını məlumatlandırıb. Qeyd edib ki, fakültə fəaliyyət göstərdiyi 105 il ərzində çətin və şərəfli inkişaf yolu keçib. BDU-nun və fakültənin dünya şöhrətli məzunu isə Ümummilli Lider Heydər Əliyevdir. Sonra İbrahim Zeynalov Arxeologiya və etnoqrafiya kafedrasının apardığı elmi-tədqiqat işləri barəsində məlumat verib.

Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin dekanı Laçın Abışlı fakültədə ABŞ, İsveçrə və Qazaxıstanın qabaqcıl ali təhsil müəssisələri ilə həyata keçirilən ikili diplom proqramlarından bəhs edib. Fakültədə 7 kafedra tərəfindən iqtisadi və siyasi elmlər olmaqla ali təhsilin bütün pillələri üzrə yüksəkixtisaslı kadr hazırlığı həyata keçirildiyini deyib. Dekan müavini Kənan Vəkilov fakültədə bakalavriat, magistratura və doktorantura səviyyələrində 4000-ə qədər tələbənin 35 ixtisas və ixtisaslaşma üzrə Azərbaycan, rus və ingilis dillərində təhsil aldığını deyib, həyata keçirilən elmi-tədqiqat işləri barəsində Renmin Universitetinin nümayəndələrini məlumatlandırıb.

Renmin Universitetinin nümayəndələri BDU ilə qarşılıqlı əməkdaşlıqdan məmnunluqlarını ifadə edərək, bu əlaqələrin Çin və Azərbaycan arasında mövcud münasibətlərin inkişafına töhfə verəcəyinə əminliklərini bildiriblər. Sonra Renmin Universitetinin beynəlxalq əlaqələri, elmi-tədqiqat fəaliyyəti haqqında iştirakçıları məlumatlandırıblar.

Görüşdə BDU-nun Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin biznesin təşkili və idarəedilməsi (MBA proqramı) ixtisaslaşması üzrə Renmin Universiteti ilə birgə ikili diplom proqramının həyata keçirilməsi, həmçinin Tarix fakültəsində Arxeologiya və etnoqrafiya kafedrası ilə birgə elmi-tədqiqat işlərinin aparılması, bu istiqamətdə ikili diplom proqramı layihəsinin yaradılması haqqında da müzakirələr aparılıb.

## BDU ilə "Times Higher Education" Beynəlxalq Reytinq Agentliyinin nümayəndələri arasında görüş

***Yanvarın 26-da BDU ilə "Times Higher Education" (THE) Beynəlxalq Reytinq Agentliyinin nümayəndələri arasında görüş keçirilib.***

BDU-nun rektoru Elçin Babayevin, THE Beynəlxalq Reytinq Agentliyinin qlobal məsələlər üzrə rəhbəri Phil Batinin, Böyük Britaniya və Avropa üzrə kommersiya direktoru Laçın İtalmazovanın, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin Beynəlxalq layihələrin idarə olunması sektorunun müdiri Zülfiyyə Şəfiyevanın iştirak etdiyi görüşdə reytinqlərin əhəmiyyəti vurğulanıb və BDU-da müvafiq istiqamət üzrə görülən işlərə dair geniş məlumat verilib. Daha sonra isə THE Beynəlxalq Reytinq Agentliyinin nümayəndələri ünvanlanan sualları cavablandırıblar.

Qeyd edək ki, BDU Azərbaycanda "Times Higher Education" dünya universitetləri reytinqi (WUR), eləcə də "Times Higher Education Subject Ranking" siyahısında yer alan yeganə universitetdir. Belə ki, BDU fiziki elmlər (fizika, kimya, geologiya, astronomiya, riyaziyyat və s.) və mühəndislik elmləri (kimya mühəndisliyi, geologiya mühəndisliyi, hidrogeologiya mühəndisliyi, geofizika mühəndisliyi və s.) üzrə 1001+ mövqelərini tutub.

## BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecdə qış imtahan sessiyası keçirilir

***BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecdə 2023/2024-cü tədris ilinin qış imtahan sessiyası başlayıb.*** İmtahanlar iki növbədə (humanitar ixtisaslar üzrə yazılı imtahanlar saat 10:00-dan 13:00-dək, iqtisadiyyat ixtisasları üzrə imtahanlar saat 14:00-dan 17:00-dək) keçirilir.

İmtahanlarda Azərbaycan bölməsi üzrə 1042, rus bölməsi üzrə 297 tələbə iştirak edir. Onlardan 509-u dövlət sifarişli, 830-u isə ödənişli əsaslarla təhsil alır. Qış imtahan sessiyası zamanı üzrlü və üzrsüz səbəblərdən imtahanda iştirak etməyən təhsilalanlara həmin fənlərdən imtahan vermək üçün şərait yaradılıb.

Sessiyanın gedişinə operativ nəzarət, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı təmin etmək məqsədilə İmtahan Qərargahı və Apelyasiya Komissiyası yaradılıb. Komissiya sessiya müddətində imtahanların gedişi ilə əlaqədar irizə, təklif və Elm və Təhsil Nazirliyinin "Qaynar xətt"i vasitəsilə daxil olmuş şikayətlərin araşdırılmasını təmin edib.

## BDU 40-dan çox ölkənin 150-dən artıq universiteti ilə əməkdaşlıq edir

***2023-cü ildə BDU müxtəlif ölkələrin tanınmış universitetləri ilə 14 əməkdaşlıq müqaviləsi imzalayıb.***

8 müqavilə (Varşava Universiteti, Ege Universiteti, Tsukuba Universiteti, Buxarest İqtisadi Elmlər Universiteti, Quaid-i-Azam Universiteti, Çukurova Universiteti) üzərində isə danışıqlar aparılır. Qeyd edək ki, BDU hazırda 40-dan çox ölkənin 150-dən artıq universiteti ilə əməkdaşlıq edir.

BDU Beynəlxalq Astronavtika Federasiyasının (BAF) Baş Assambleyasının 2023-cü il üçün ilk sessiyasında rəsmi üzv seçilib. Bu seçki 2-6 oktyabr 2023-cü il tarixlərində Bakı şəhərində keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresi (IAC 2023) çərçivəsində baş tutub. Beləliklə, BDU-nun üzv olduğu beynəlxalq assosiasiyaların sayı da 12-yə çatıb.

# BDU-da 20 Yanvar şəhidlərinin anım mərasimi

*(əvvəli 1-si səhifədə)*



Milli Məclisin üzvü, BDU-nun İctimai Nəzarət Şurasının sədri Arzu Nağıyev çıxışında vurğulayıb ki, həmin gün xalqımız böyük faciə ilə üzləşsə də, özünün Vətənə, torpağa sədaqətini, qəhrəmanlığını, müstəqillik uğrunda mübarizliyini bütün dünyaya nümayiş etdirdi. 20 Yanvar faciəsi ermənipərəst sovet rəhbərliyinin Azərbaycana qarşı məkrli niyyətini bir daha açıb göstərdi. 20 Yanvar faciəsi Azərbaycan xalqının azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi yazılıb. Əməkdar jurnalist, 20 Yanvar şəhidlərinə həsr edilmiş "Şəhidlər" kitabının müəllifi Rafiq Səməndər, Azərbaycan Dövlət Televiziyasının rejissoru, 20 Yanvar hadisələrinin canlı şahidi Əlimürsəl Hacızadə, BDU-nun Tarix fakültəsinin Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının müdiri, dosent Azad Rzayev çıxışlarında qanlı faciə günləri ilə bağlı xatirələrini bölüşüblər. Çıxışlarda 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş sovet ordusunun paytaxtda və bölgələrdə həyata keçirdiyi qətliamdan, günahsız insanların həyatlarını itirməsindən bəhs edilib, Vətən uğrunda canlarından keçmiş oğullarımızın Azərbaycan xalqının qəlbində əbədi yaşayacağı qeyd olunub.



Tədbir BDU-nun Mədəniyyət-Yaradıcılıq Mərkəzinin hazırladığı ədəbi kompozisiyanın nümayişi ilə başa çatıb.

# 20 Yanvar faciəsinin 34-cü ildönümünə həsr olunmuş sərgi

***Yanvarın 18-də BDU 20 Yanvar faciəsinin 34-cü ildönümü ilə əlaqədar foto və kitab sərgisi təşkil olunub.*** BDU Elmi Kitabxanasının təşkil etdiyi sərgidə 1990-cı ilin qanlı yanvarından başlayaraq xalqımızın azadlığı, Vətənimizin müstəqilliyi, torpaqlarımızın erməni işğalçılarından azad olunması uğrunda qəhrəmancasına həlak olan şəhidlərimiz barədə nəşrlər ("20 Yanvar. Tariximizin qanlı və şanlı səhifəsi", "20 Yanvar – Qan yaddaşımız", "Çernıy yanvar", həmçinin Faiq Balabəylinin "Kəsilməyən həyəcan fiti", Rafiq Səməndərin "Şəhidlər", Səriyyə Müslümqızının "Qar üstünə qan yağırdı", Qulu Kəngərlinin "Qanlı şənbəyə gedən yol", Hacı Niftalı Şıxların "Dünyamızın 20 Yanvar faciəsi", Tacir Qurbanov, Almara Nəbiyeva, Maral Qocamanın həmmüəllifi olduqları "Azadlıq carçıları" kitabları), həmin müdhiş gecənin dəhşətlərini özündə əks etdirən fotolar nümayiş olunub.



Sərgi bir neçə gün davam edib.

# BDU-nun nəzdində "Gənc istedadlar" liseyində 20 Yanvar şəhidləri anılıb

***Yanvarın 19-da BDU-nun nəzdində "Gənc istedadlar" liseyində 20 Yanvar hadisələrinin 34-cü ildönümü qeyd edilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, sonra Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Liseyin direktoru Arif Bağırov qeyd edib ki, qan yaddaşımıza əbədi həkk olunan 1990-cı ilin 20 Yanvar hadisələri tariximizin faciə və qəhrəmanlıq səhifəsi, Azərbaycanın sonrakı taleyinə əhəmiyyətli təsiri olan dönüş anıdır.

Bu faciə xalqımızın azadlıq, demokratiya və suverenlik uğrunda apardığı mübarizənin dönməzliyini bütün dünyaya nümayiş etdirdi. Liseyin hərbi rəhbəri, Vətən müharibəsi qazisi, ehtiyatda olan polkovnik-leytenant Nihat Abdullayev 20 Yanvar faciəsinin səbəbləri barədə söz açıb, onun Azərbaycan xalqının qəhrəmanlıq salnaməsi olduğunu bildirib.

Sonra tədbir bədii hissə ilə davam edib.

# BDU-nun Qazax filialında 20 Yanvar faciəsinin ildönümü qeyd olunub

***Yanvarın 19-da BDU-nun Qazax filialında 20 Yanvar faciəsinin 34-cü ildönümünə həsr edilmiş anım mərasimi keçirilib.***

Tədbir iştirakçıları əvvəlcə filialın foyesində 20 Yanvar faciəsinə aid məlumatları özündə əks etdirən kitablardan ibarət sərgi ilə tanış olublar.

20 Yanvar qurbanlarının və torpaqlarımızın azadlığı uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Filialın direktoru Arif Rüstəmov bildirib ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda rus və erməni hərbçiləri tərəfindən dinc əhaliyə qarşı dəhşətli, kütləvi qırğın törədildi. Bu qanlı hadisənin baş verməsində əsas məqsəd azadlıq, suverenlik arzusunda olan Azərbaycan xalqının iradəsini qırmaq idi. Sovet imperiyası günahsız insanların qanını axıtsa da, istəyinə nail ola bilmədi, xalqımız öz azadlığına qovuşdu.

Sonra faciəyə həsr olunmuş videoçarx nümayiş olunub.

Filialın İctimai və təbiət fənləri kafedrasının baş müəllimi Mübariz Süleymanov məruzə ilə çıxış edərək, 20 Yanvar faciəsinin başvermə səbəbləri, tarixi əhəmiyyəti barədə tədbir iştirakçılarına ətraflı məlumat verib. Filialın İctimai fənlər kafedrasının müəllimi İndira Vəliyeva, Dil, ədəbiyyat və onların tədrisi metodikası kafedrasının müəllimi Mustafa Mustafayev, Sosial iş ixtisası üzrə magistrantı Nurlan Quliyev, Azərbaycan dili və ədəbiyyatı ixtisasının II kurs tələbəsi Nigar Mahmudova öz çıxışlarında 20 Yanvar faciəsinin hər birimizin yaddaşına əbədi həkk olunduğunu qeyd ediblər. Vurğulanıb ki, bu qanlı faciə xalqımızın azadlıq eşqinin, iradəsinin sarsılmazlığını, mətinliyini göstərir. 20 Yanvar şəhidlərinin qəhrəmanlığı Azərbaycan gəncləri üçün örnəkdir. Gələcək nəsillər şəhidlərin qəhrəmanlığından nümunə götürəcək, azadlıq və müstəqilliyimizi qorumaq üçün daim mübarizədə olacaqlar.

# BDU kollektivi Şəhidlər xiyabanını ziyarət edib



***Yanvarın 20-də Bakı Dövlət Universitetinin kollektivi Şəhidlər xiyabanını ziyarət edib.***

BDU əməkdaşları Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsini hörmət və ehtiramla yad edib, məzarları üzərinə qərənfillər düzüblər.

# BDU alimi Türkiyədə beynəlxalq konfransda "Heydər Əliyev və qadın siyasəti" adlı məruzə edib

***Yanvarın 9-da Şərqşünaslıq fakültəsinin Orta Şərq dilləri kafedrasının dosenti, filologiya elmləri üzrə fəlsəfə doktoru Əsmətxanım Məmmədova Türkiyənin Kırklareli şəhərində keçirilən X Beynəlxalq Balkan sosial elmlər konfransında "Heydər Əliyev və qadın siyasəti" adlı məruzə ilə çıxış edib.***

Məruzədə qeyd olunub ki, ölkəmizdə dövlət qadın siyasətinin əsas prinsiplərinin müəyyən edilməsi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. O, hakimiyyətdə olduğu bütün dövrlərdə qadınların idarəetmə, qərarqəbuletmə və sosial həyatın bütün sahələrində irəli çəkilməsini daim vacib bilib. Azərbaycanda qadın hüquqlarının qorunması, təbliğ olunması, onlara yüksək imtiyazların verilməsi, qadınların dövlət siyasətinin həyata keçirilməsində və qanunların qəbul edilməsində iştirakının artırılması Ulu Öndərin siyasətinin ayrılmaz tərkib hissələrindən olub. Ümummilli Lider Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində respublikamıza rəhbərliyi dövründə Azərbaycan qadınlarının problemlərinin həllinə, onların ölkənin siyasi, sosial, iqtisadi və mədəni həyatında rolunun artırılması məsələlərinə böyük diqqət ayırıb. Məhz bu siyasətin nəticəsində Ulu Öndərin qurucusu olduğu müasir Azərbaycanın inkişafında qadınların rolu əhəmiyyətli dərəcədə artıb. Ulu Öndərin bu istiqamətdə imzaladığı çoxsaylı fərman və sərəncamları deyilənlərin bariz nümunəsi kimi konfrans iştirakçılarının diqqətinə çatdırılıb.

Məruzədə dövlət qadın siyasətinin əsas prinsiplərinin müəyyən edilməsi, qadın problemlərinin ən üst səviyyədə həllinə nail olunmasında Ulu Öndərin müstəsna rolu inkaredilməz tarixi fakt kimi dinləyicilərin nəzərinə çatdırılıb. Ümummilli Liderin bünövrəsini qoyduğu strategiya, kursun tam gücü ilə, daha sistemli, mütəşəkkil formada davam etdirilməsi azad, müstəqil, hüquqi, dünyəvi dövlətimizin dünya arenasındakı uğurunun qarantı kimi dəyərləndirilib.

Sonda 2023-cü il dekabrın 26-da ictimai-siyasi, sosial-mədəni həyatda fəallığı ilə seçilən 500-dək qadının iştirakı ilə Azərbaycan Qadınlarının Forumunda 9 qeyri-hökumət təşkilatının təsis etdiyi "Bərabər İnkişaf Naminə" Koalisiya, onun məram, məqsəd, fəaliyyəti haqqında beynəlxalq konfransın iştirakçılarına geniş məlumat verilib.

Məruzə iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.

# Bu il THE qlobal reytinqinə Azərbaycan ali təhsil müəssisələrindən yalnız BDU daxil olub

***Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi ali təhsil müəssisələrinin "Times Higher Education" qlobal reytinqində iştirakına dair məlumat yayıb.***

Hər il dünyanın ən nüfuzlu ali təhsil müəssisələrinin siyahısını müəyyən edən "Times Higher Education World University Rankings" (THE qlobal) beynəlxalq reytinq cədvəli dərc olunur.

27 sentyabr 2023-cü il tarixində elan olunan THE qlobal reytinqindən etibarən yeni metodologiyanın tətbiqinə başlanılıb. Müvafiq dəyişikliyə əsasən, ali təhsil müəssisələrinin fəaliyyətinin qiymətləndirilməsi 5 istiqamət (tədris, tədqiqat mühiti, tədqiqatın keyfiyyəti, beynəlmiləlləşmə göstəriciləri və sənaye) üzrə həyata keçirilir.

Ali təhsil müəssisələri hansı meyarlara əsasən reytinqə daxil edilir? Ali təhsil müəssisələrinin THE qlobal reytinqinə daxil olması üçün qrafikdə göstərilən 7 əsas meyar müəyyən olunub. Yalnız 4, 6 və 7-ci meyarlara uyğun olan, digər meyarlara cavab verməyən ali təhsil müəssisələri qlobal reytinqə daxil edilmir və "reporter" statusu əldə edir.

Bu il THE qlobal reytinqinə Azərbaycan ali təhsil müəssisələrindən yalnız Bakı Dövlət Universiteti daxil olub. Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Naxçıvan Dövlət Universiteti, Xəzər Universiteti və Qərbi Kaspi Universiteti isə "reporter" qismində siyahıya daxil edilib.

Qeyd edək ki, növbəti THE 2025 qlobal reytinqinin nəticələri cari ilin oktyabr ayında elan ediləcək.

# BDU ilə Bioloji Müxtəlifliyin Qorunması Xidməti arasında anlaşma memorandumu imzalanıb

***Yanvarın 31-də BDU ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Bioloji Müxtəlifliyin Qorunması Xidməti arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.***

İmzalanma mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) 2024-cü ildə Azərbaycanda keçirilməsi haqqında qəbul edilən qərar çox mühüm hadisədir. Bu mötəbər tədbirə Azərbaycanın ev sahibliyi etməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ən böyük qələbələrindəndir. Bütün dünya ölkələri tərəfindən qəbul edilən bu qərar ölkəmizə göstərilən böyük etimad və hörmətin bariz nümunəsidir. 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması ölkəmizin bu istiqamətdə apardığı işlərə daha da təkan verəcək. Bütün bunlar dövlət qurumlarının və ali təhsil müəssisələrinin üzərinə də müəyyən öhdəliklər qoyur.



Rektor imzalanan memorandumun ölkədə bu sahədə həyata keçirilən dövlət siyasətinə töhfə verəcəyinə əminliyini bildirib.

Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəisi Firuddin Əliyev isə qeyd edib ki, Azərbaycandakı bütün milli park və qoruqlarda təcrübə və elmi-tədqiqat işləri aparmaq üçün hər cür şərait var. BDU tələbələrinin tədris prosesinin səmərəliliyini artırmaq məqsədilə Bioloji Müxtəlifliyin Qorunması Xidmətində təcrübə və təlim keçmələri təşkil edilə bilər. Anlaşma memorandumuna əsasən, Xidmətin



struktur bölmələrinin əməkdaşlarının BDU-da ixtisasartırma dərslərinin keçirilməsi, tədris prosesinə cəlb olunması nəzərdə tutulur. Birgə əməkdaşlıq çərçivəsində BDU-nun ekologiya ixtisası və ekologiya hüququ üzrə təhsil alan tələbələrin ekoloji layihələrin hazırlanması və həyata keçirilməsinə cəlb edilməsi işi də təşkil ediləcək.

Anlaşma memorandumunda ekologiya hüququ sahəsində beynəlxalq və milli səviyyədə akademik, elmi tədbir və təlimlərin, konfrans, seminar, simpozium və mühazirələrin həyata keçirilməsi, eyni zamanda təhsilalanlar üçün etno-ekoloji və ekoturizm yönümlü proqramların hazırlanması, birgə elmi tədqiqatların aparılması, sərgilərin, yay düşərgələrinin təşkil edilməsi də nəzərdə tutulur.

# BDU-nun İctimai Nəzarət Şurasının üzvləri və KİV nümayəndələri imtahan sessiyasını izləyiblər



***Yanvarın 23-də BDU-nun İctimai Nəzarət Şurasının üzvləri və KİV nümayəndələrinin iştirakı ilə payız semestrinin imtahan sessiyasının gedişatı izlənilib.***

Əvvəlcə BDU-nun əsaslı təmir olunmuş 2 saylı tədris korpusunda yerləşən "Zəfər tarixi" lektoriyasında İctimai Nəzarət Şurasının iclası keçirilib. BDU rektoru Şura üzvlərinə Universitetdə son zamanlar həyata keçirilən yeniliklər və sessiyanın gedişi ilə bağlı məlumat verib.

Rektor qeyd edib ki, ötən müddət ərzində BDU-nun 2 saylı tədris korpusu əsaslı təmir olunaraq tələbələrin ixtiyarına verilib. Binada tədris prosesinin daha da optimallaşdırılması üçün zəruri şərait yaradılıb, istilik, işıqlandırma, yanğın təhlükəsizliyi sistemi yenidən qurulub, bütün otaqlar mebel və kondisionerlərlə təchiz olunub. Binanın çardağının altı da tam təmir olunub və yaxın zamanlarda tələbələrin təlim keçmələri, asudə vaxtlarının təşkili üçün zonaya çevriləcək. Binanın həyətində də abadlıq işləri aparılıb, şəhidlərin xatirəsinə ucaldılmış abidə yenidən qurulub. Əsaslı yenidənqurma işləri BDU-nun digər korpuslarında da davam etdiriləcək.

Rektor Elçin Babayev yanvarın 23-də 5360 nəfər tələbənin imtahan verdiyini xatırladıb. Qeyd edib ki, BDU-da qış imtahan sessiyası yanvarın 7-dən başlayıb. Mərkəzləşmiş qaydada keçirilən imtahanlara şəffaf nəzarət mexanizmi qurulub, sui-istifadə hallarının qarşısı dərhal alınır. Sessiyanın gedişinə operativ nəzarət, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı təmin etmək məqsədilə İmtahan Qərargahı və Apelyasiya Komissiyası yaradılıb. Komissiya sessiya müddətində imtahanların gedişi ilə əlaqədar ərizə, təklif, Elm və Təhsil Nazirliyinin "Qaynar xətt"i vasitəsilə daxil olmuş şikayətlərin operativ araşdırılmasını təmin edir.

Sonra İctimai Nəzarət Şurasının üzvləri və KİV nümayəndələri ayrı-ayrı auditoriyalarda prosesi müşahidə edib, tələbələrin imtahanların gedişinə münasibətləri ilə maraqlanıblar. Şura üzvləri həmçinin BDU-nun 2 saylı tədris binasındakı yeniliklərlə tanış olublar.

# BDU "ERASMUS+IQAinAR" tədbirində təmsil olunub

***BDU assosiativ üzv olduğu "ERASMUS+IQAinAR" layihəsi çərçivəsində təşkil olunan tədbirdə təmsil olunub.***

BDU rektorunun müşaviri Asiman İlyasov layihənin yerli və xarici partnyorlarının qatıldığı tədbirdə iştirak edib. Görüşdə tədbir iştirakçılarına keyfiyyət təminatı sisteminə dair geniş məlumat verilib.

Məlumat üçün bildirək ki, Niderlandın Vittenborg Tətbiqi Elmlər Universitetinin koordinatorluğu ilə həyata keçirilən layihə ali təhsil müəssisələrinin daxili keyfiyyət təminatının təkmilləşdirilməsinə və inkişafına töhfə vermək, eyni zamanda yerli, regional, milli siyasət və strategiyaların həyata keçirilməsi istiqamətində gücləndirilməsini nəzərdə tutur.

# BDU-da görkəmli alim və yazıçı Mir Cəlal Paşayevin alman dilinə tərcümə edilmiş "Füzuli sənətkarlığı" kitabının təqdimatı

***Yanvarın 27-də BDU-da görkəmli yazıçı, alim və pedaqoq Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı" kitabının alman dilində nəşrinin təqdimatı keçirilib. Kitab şərqşünas alim, türkoloq Mixael Raynhard Hess tərəfindən alman dilinə tərcümə edilib.***



Əvvəlcə BDU TV-nin görkəmli alim və yazıçı Mir Cəlal Paşayevin ömür yolundan bəhs edən videoçarxı nümayiş olunub.

Mərasimdə çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, xalqlar arasında münasibətlərin formalaşmasında və davamlı inkişafında ədəbi-mədəni əlaqələrin olduqca mühüm əhəmiyyəti var. Multikultural dəyərləri özünün yaşam fəlsəfəsinə, həyat tərzinə çevirmiş xalqımız hər zaman digər xalqların ədəbi-mədəni irsinə hörmətlə yanaşıb. Bu baxımdan Azərbaycan-alman ədəbi-mədəni əlaqələri keçdiyi tarixi yolun xronologiyasına və əhatə dairəsinə görə yüksək qiymətləndirilməlidir. Azərbaycan-alman ədəbi əlaqələrinin inkişafına mühüm töhfələrdən biri görkəmli yazıçı və ədəbiyyatşünas alim, professor Mir Cəlal Paşayevin fundamental elmi əsəri olan "Füzuli sənətkarlığı" kitabının alman dilinə tərcümə edilərək nəşr olunmasıdır: "Mir Cəlal Paşayev Azərbaycan estetik fikrinin formalaşmasında mühüm xidmətlər göstərib, hekayələri, romanları, sanballı elmi əsərləri, bu gün də alimlərin, tələbələrin stolüstü kitabı olan "Ədəbiyyatşünaslığın əsasları" dərsliyi ilə ədəbiyyat, elm, təhsil tariximizə özünün parlaq imzasını atıb. Füzuli irsinin mahir araşdırmaçısı Mir Cəlal Paşayevin gərgin zəhmətinin, orijinal düşüncə tərzinin, dərin erudisiyasının məhsulu olan "Füzuli sənətkarlığı" əsəri ədəbiyyatşünaslıq elmimizdə xüsusi mövqeyə malikdir. Bu əsər Füzulinin poetikası barədə mükəmməl elmi-tədqiqat işi, füzulişünaslıqda yeni bir mərhələ hesab olunur. İlk dəfə 1958-ci ildə işıq üzü görmüş əsər çap olunduğu gündən elmi ictimaiyyətin, nüfuzlu ədəbiyyatşünas alimlərin diqqətini cəlb edib, zaman keçdikcə Füzuli yaradıcılığını, ümumilikdə poetikanı tədqiq edən alimlər üçün əsas mənbəyə çevrilib. Bu mənada Mir Cəlal müəllimin "Füzuli sənətkarlığı" əsərinin xalqımızın dostu, təəssübkeşi, görkəmli alman alimi, türkoloq Mixael Raynhard Hess tərəfindən alman dilinə tərcümə edilib, Avropa məkanında yayılması, təbliği olduqca önəmlidir. Bu tərcümə klassik irsimizin, ədəbiyyatsünaslığımızın Avropa elmi mühitində tanıdılmasında mühüm rol oynayacaq. Mir Cəlal müəllimin "Füzuli sənətkarlığı" kitabı və eləcə də digər əsərləri yalnız alman dilinə deyil, digər Avropa və şərq dillərinə də tərcümə olunmalı, yayılmalıdır". ADA Universitetinin rektoru Hafiz Paşayev Mir Cəlal Paşayevin Füzuli yaradıcılığı haqqında fundamental əsərini yüksək səviyyədə tərcümə etdiyinə görə Mixael Raynhard Hessə təşəkkür edib. O bildirib ki, bununla Mir Cəlalın məşhur əsərinə yeni həyat verilib. "Füzuli sənətkarlığı" əsərinin alman dilinə tərcümə olunması həm Füzuli yaradıcılığının, həm də Mir Cəlalın elmi irsinin bütün dünyada yayılmasına və məşhurlaşmasına səbəb olacaq.

Xarici İşlər Nazirliyinin idarə rəisi Rizvan Nəbiyev diqqətə çatdırıb ki, Berlin Azad Universitetində dahi şairimiz İmadəddin Nəsimi haqqında doktorluq dissertasiyası müdafiə etmiş Mixael Raynhard Hess azərbaycanlı və avropalı oxuculara "Şuşanın irsi" kitabının müəllifi kimi də tanışdır. Otuz ildən bəri türkdilli xalqların dil və ədəbiyyatını tədqiq edən alim türk, Azərbaycan, fars və ərəb dillərinə dərindən bələd olması sayəsində Mir Cəlalın Füzuli yaradıcılığına dair əsərini tərcümə edərkən bütün dil xüsusiyyətlərini və incəliklərini alman dilinə məharətlə çevirə bilib.

Şərqşünas alim, türkoloq Mixael Raynhard Hess "Qərbdə türkologiya: Nəsimi və Füzuli irsinin araşdırılması" mövzusunda məruzə edib, Füzuli yaradıcılığının tərcümə xüsusiyyətlərindən danışıb. Bildirib ki, Mir Cəlal bu əsəri yazmaqla Füzuli irsinin araşdırılmasında fundamental tədqiqat işi ortaya qoyub, eyni zamanda, ötən əsrin 30-40-cı illərində Azərbaycan mədəni irsinin qorunmasına böyük töhfə verib. Kitabın alman dilinə tərcümə olunması sayəsində füzulişünaslığa maraq göstərənlər Füzuli irsi ilə tanış olmaqla yanaşı, onun qəzəl, qəsidə və digər əsərlərinin alman dilinə bədii tərcüməsini oxumaq imkanı əldə ediblər.

BDU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru, AMEA-nın müxbir üzvü Təhsin Mütəllimov, Milli Məclisin üzvü, Şərqşünaslıq fakültəsinin Türk filologiyası kafedrasının professoru Jalə Əliyeva, Filologiya fakültəsinin Alman və fransız dilləri kafedrasının baş müəllimi Mətanət Əliyeva, Azərbaycan ədəbiyyatı kafedrasının dosenti Məti Osmanoğlu çıxışlarında Mir Cəlalın bir alim, yazıçı, pedaqoq kimi Azərbaycan elminin, ədəbiyyatının inkişafı naminə gördüyü işlərdən danışıb, təqdimatı keçirilən kitabın Azərbaycan-alman ədəbi-mədəni əlaqələrinin inkişafına verəcəyi mühüm töhfələrdən bəhs ediblər.

Sonra Mixael Raynhard Hess tədbir iştirakçılarının suallarını cavablandırıb.

Tədbirin sonunda BDU-nun Filologiya və Şərqşünaslıq fakültələrinin tələbələrinin ifasında Füzulinin qəzəlləri səsləndirilib.

# BDU tələbələri Təbiət Tarixi Muzeyində

***Yanvarın 7-də Biologiya fakültəsinin Biologiya müəllimliyi ixtisası üzrə təhsil alan II kurs tələbələri fənn müəllimi, Zoologiya və fizologiya kafedrasının dosenti Saleh Əliyevin rəhbərliyi ilə Həsən bəy Zərdabi adına Təbiət Tarixi Muzeyinə ekskursiya ediblər.***



Muzey Azərbaycan Milli Elmlər Akademiyasının Geologiya və Geofizika İnstitutunun tərkibində fəaliyyət göstərir. Tələbələr Zoologiya şöbəsində geoloji keçmişdə yaşamış və müasir onurğalı, onurğasız heyvanların skeletləri, müqəvvaları, izləri, xüsusi məhlullarda saxlanılan cəsədləri ilə tanış olublar. Muzeydə dördüncü dövrə aid olan Binəqədi, Pirəkəşkül, Eldar hipparion, Mingəçevir kolleksiyaları tələbələrin diqqətini daha çox cəlb edib.

# BDU-da qış imtahan sessiyası başlayıb

***Yanvarın 7-dən Bakı Dövlət Universitetində 2023/2024-cü tədris ilinin payız semestrinin qış imtahan sessiyası başlayıb.***

İmtahanlar iki növbədə (bakalavriat səviyyəsi üzrə yazılı imtahanlar saat 10:00-13:00-dək, şifahi və magistratura səviyyəsi üzrə imtahanlar saat 14:00-17:00-dək) keçirilir.

Bakalavriatura səviyyəsində 937 qrup üzrə 20 mindən çox, magistratura səviyyəsində isə 235 ixtisaslaşma üzrə 2014 tələbə imtahan verir.

Sessiya zamanı üzrlü və üzrsüz səbəblərdən imtahanda iştirak etməyən təhsilalanlara həmin fənlərdən imtahan vermək üçün 2024-cü ilin fevral ayının 5-dən 14-dək şərait yaradılacaq.

Sessiyanın gedişinə operativ nəzarət, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı təmin etmək məqsədilə İmtahan Qərargahı və Apelyasiya Komissiyası yaradılıb. Komissiya sessiya müddətində imtahanların gedişi ilə əlaqədar ərizə, təklif və Elm və Təhsil Nazirliyinin "Qaynar xətt"i vasitəsilə daxil olmuş şikayətlərin araşdırılmasını təmin edəcək.

Sessiya fevralın 5-dək davam edəcək.

# BDU-nun Qazax filialında 16 ixtisas üzrə 1783 tələbə imtahan verir

***BDU-nun Qazax filialında 2023/2024-cü tədris ilinin qış imtahan sessiyası başlayıb.***

Qış imtahan sessiyasında 16 ixtisas üzrə 1783 tələbə iştirak edir.

Filialda imtahanların şəffaf və obyektiv keçirilməsi üçün lazımi şərait yaradılıb. İmtahan sessiyasında tələbələrin müraciətlərinin qəbulu və araşdırılması, biliyinin qiymətləndirilməsində obyektivliyin təmin olunması məqsədilə Operativ Qərargah və Apelyasiya Komissiyası formalaşdırılıb. Filialda "Qaynar xətt" də fəaliyyət göstərir.

Sessiya fevralın 2-dək davam edəcək.

# BDU-nun 345 tələbəsi payız semestri üzrə təhsil krediti alıb

***BDU-nun 345 tələbəsi 2023/2024-cü tədris ilinin payız semestri üzrə təhsil krediti almaq hüququ əldə edib. Onlardan 88-i sosial, 257-si isə standart təhsil krediti.***

2022/2023-ci tədris ilində isə ümumilikdə 589 BDU tələbəsinə təhsil krediti verilib. Onlardan 177-si sosial, 412-si isə standart təhsil krediti olub.

Təhsil krediti almaq istəyən tələbələr www.e-ttkf.edu.az üzərindən elektron müraciət edə bilərlər.

Qeyd edək ki, təhsil tələbə krediti verilən zaman girov və ya zaminlik tələb olunmur. Təhsil tələbə krediti uzunmüddətlidir və təhsil müddətində, güzəşt və möhlət dövründə tələbədən kreditin qaytarılması tələb edilməməklə yanaşı, faizlər də hesablanmır.

## BDU-da tətbiqi xarakterli tədqiqatlar öz nəticəsini verməkdədir

***BDU-nun Əməliyyatlar tədqiqi və ehtimal nəzəriyyəsi kafedrasının müdiri, professor Rövşən Əliyevin həmmüəllifi olduğu "Komponentləri asılı təsadüfi kəmiyyətlər olan və ağır qalıqlı paylanmaya malik gözləmə müddətli mükafatlı bərpa prosesinin riyazi gözləməsi üçün asimptotik ayrılış" adlı məqalə "Web of Science" elmmetrik beynəlxalq bazasına daxil olan (IF: 0.35) "Theory of Probability & Its Applications" jurnalında dərc olunub.*** Məqalədə komponentləri asılı təsadüfi kəmiyyətlər olan mükafatlı bərpa prosesi tədqiq edilib. Bu prosesin riyazi gözləməsi üçün ağır qalıqlı paylanmalar sinfində asimptotik ayrılış əldə olunub.

# Azərbaycanda Özbəkistan Elm və Mədəniyyət Günləri çərçivəsində BDU-nun elmi ictimaiyyəti ilə görüş

***Yanvarın 25-də Azərbaycanda Özbəkistan Elm və Mədəniyyət Günləri çərçivəsində bu ölkənin nümayəndə heyətinin BDU elmi ictimaiyyəti ilə görüşü keçirilib.***

Tədbirin açılış mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev Azərbaycan və Özbəkistanın ortaq kökə, tarixə malik qardaş ölkələr olduğunu bildirib. Yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan-Özbəkistan münasibətləri Azərbaycan respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin rəhbərliyi sayəsində uğurlu və dinamik əməkdaşlıq modelinə çevrilib. Son illər Azərbaycan və Özbəkistan arasında iqtisadi, siyasi əməkdaşlıq nəzərəçarpacaq dərəcədə artıb. Enerji, nəqliyyat və infrastruktur sahələrində birgə layihələrin həyata keçirilməsi hər iki ölkə üçün prioritet məsələyə çevrilib. Yüksək səviyyəli nümayəndə heyətlərinin mübadiləsi, danışıqların aparılması və mühüm sazişlərin imzalanması hər iki ölkənin siyasi səviyyədə uğurlu əməkdaşlığını nümayiş etdirir. Diplomatik prosesin mühüm elementlərindən biri də mədəniyyət, təhsil və elm sahəsində təcrübə mübadiləsidir. Bu, xalqlar arasında qarşılıqlı anlaşmanın dərinləşməsinə kömək edir.

Rektor qeyd edib ki, təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlıq, informasiya mübadiləsi də müasir dünyanın çağırışları, təhdidləri fonunda hər iki ölkə üçün getdikcə əhəmiyyət kəsb edir və regionun təhlükəsizlik strategiyasının mühüm elementinə çevrilir. Azərbaycan-Özbəkistan münasibətlərinin inkişafında yeni mərhələ təkcə iqtisadi və siyasi əməkdaşlığın möhkəmlənməsi deyil, həm də xalqlar arasında etimadın və qarşılıqlı anlaşmanın genişlənməsi ilə əlamətdardır. Azərbaycan və Özbəkistan arasında strateji əməkdaşlıq akademik mühitimizi zənginləşdirməklə yanaşı, həm də ölkələrimizdə təhsilin, elmin və



mədəniyyətin inkişafı üçün əsas amildir: “Biz bunu birgə tədqiqat layihələrinin inkişafı, bilik və təcrübə mübadiləsi, hər iki ölkənin tələbələri və alimləri üçün yeni imkanlar yaratmaq baxımından münbit zəmin kimi görürük. Füzuli rayonunda Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin xeyir-duası ilə ərsəyə gələn Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılışı çox əhəmiyyətlidir. Bu məktəb təkcə təhsil məkanına deyil, həm də türk dünyasının ümid, dirçəliş, qardaşlıq rəmzinə çevrilib”.

Elçin Babayev diqqətə çatdırıb ki, son illər BDU Özbəkistanın universitetləri ilə əməkdaşlığı daha da gücləndirib. BDU Özbəkistan Dövlət İncəsənət və Mədəniyyət İnstitutu, Nizami adına Daşkənd Dövlət Pedaqoji Universiteti, Mirzə Uluqbəy adına Özbəkistan Milli Universiteti, Abdulla Qədiri adına Çizak Dövlət Pedaqoji Universiteti, Daşkənd Hüquq Universiteti və Özbəkistanın digər görkəmli təhsil müəssisələri ilə əməkdaşlıq müqavilələri imzalayıb: “Əməkdaşlığımız təkcə təhsil sahəsi ilə məhdudlaşmır. BDU Buxara Dövlət Universiteti və Buxara Mühəndislik və Texnologiya İnstitutu ilə müqavilələr imzalayaraq, elm və mədəniyyət sahəsində tərəfdaşlığı fəal şəkildə inkişaf etdirir. Bu gün Özbəkistan Elmlər Akademiyasının Astronomiya İnstitutu ilə imzalanacaq əməkdaşlıq müqaviləsi də astronomiya və kosmik elmlər sahəsində tədqiqatlarımız üçün yeni perspektivlər açır. Əminəm ki, Özbəkistan universitetləri ilə bu tərəfdaşlıq bizə qarşılıqlı inkişaf üçün çoxlu imkanlar verəcək”.

Özbəkistanın Azərbaycandakı səfiri Bahrom Aşrafxanov bildirib ki, iki ölkə arasında çoxəsrlik dostluq, qardaşlıq əlaqələri var. Azərbaycan Özbəkistanın xarici siyasətində ən önəmli tərəfdaşlardan biridir. Son iki ildə isə bu münasibətlər strateji müttəfiqlik səviyyəsinə yüksəlib: “Özbəkistan Prezidentinin sərəncamı ilə Azərbaycanda Özbəkistanın Elm və Mədəniyyət Günlərini keçiririk. Bu qərar dövlətimizin başçısının və ümumən xalqımızın qardaş Azərbaycan xalqına göstərdiyi böyük hörmət və məhəbbətin əlamətidir. Ötən ilin noyabrında Bakıda keçirilən görüşdə dövlət başçılarımız 2024-cü ili Özbəkistan-Azərbaycan çoxşaxəli əlaqələrinin intensiv inkişafı ili elan ediblər”.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli Azərbaycan-Özbəkistan ədəbi əlaqələrinin önəmindən danışıb. Qeyd edib ki, iki qardaş xalq arasında ədəbi əlaqələr günü-gündən daha da inkişaf edir.



Nümayəndə heyətinin rəhbəri, Özbəkistan Respublikası Ali Məclisinin Qanunvericilik Palatası sədrinin birinci müavini, akademik, hüquq elmləri doktoru, professor Akmal Saidov Azərbaycanın suverenliyinin, tarixi ədalətin bərpasının özbək xalqının da sevincinə səbəb olduğunu deyib və bu münasibətlə xalqımızı təbrik edib. O, Azərbaycan və Özbəkistan arasında müəllim-tələbə mübadiləsinin genişləndirilməsinin önəmini vurğulayıb. Bildirib ki, bununla yanaşı, hər iki ölkənin ali təhsil ocaqları qarşılıqlı maraq doğuran istiqamətlər üzrə birgə tədqiqatlar aparmalı, elmi sferada əməkdaşlıq etməlidirlər.

Daha sonra “Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyəti”nin icraçı direktoru, Nizami adına Daşkənd Pedaqoji İnstitutunun professoru Erkin Nuriddinov, Özbəkistan Elmlər Akademiyasının Mirzə Uluqbəy adına Astronomiya İnstitutunun direktoru, akademik Şuhrat Ehgamberdiev, Nizami adına Daşkənd Pedaqoji Universitetinin rektoru, professor Abdulqafor Kirgizbayev, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Müjdat Həsənov, BDU-nun Filologiya fakültəsinin "Türkoloji araşdırmalar" elmi-tədqiqat laboratoriyasının müdiri, filologiya elmləri doktoru Ramiz Əskərov, Tarix fakültəsinin Türk xalqları tarixi kafedrasının dosenti Sənubər İsmayılova çıxışlarında tədbirin Azərbaycan-Özbəkistan əlaqələrinə verəcəyi töhfələrdən danışıblar.

Sonra BDU ilə Özbəkistan Elmlər Akademiyasının Mirzə Uluqbəy adına Astronomiya İnstitutu arasında əməkdaşlıq müqaviləsi imzalanıb.

Azərbaycan-Özbəkistan ali təhsil müəssisələri və elmi-tədqiqat institutları arasında əlaqələrin genişlənməsinə verdikləri töhfələrə görə Özbəkistanın Azərbaycandakı səfiri Bahrom Aşrafxanov, Özbəkistan Respublikası Ali Məclisinin Qanunvericilik Palatası sədrinin birinci müavini, akademik, hüquq elmləri doktoru, professor Akmal Saidov, Özbəkistan Elmlər Akademiyasının Mirzə Uluqbəy adına Astronomiya İnstitutunun direktoru, akademik Şuhrat Ehgamberdiev, BDU-nun Filologiya fakültəsinin "Türkoloji araşdırmalar" elmi-tədqiqat laboratoriyasının müdiri, filologiya elmləri doktoru Ramiz Əskərov Fəxri Fərmanla təltif olunublar.

Tədbir BDU-nun Mədəniyyət-Yaradıcılıq Mərkəzinin təqdimatında Azərbaycan və Özbəkistan xalqlarının mahnı və rəqslərindən ibarət bədii hissə ilə davam edib.

# BDU ilə Özbəkistan Elmlər Akademiyasının Mirzə Uluqbəy adına Astronomiya İnstitutu arasında əməkdaşlıq müqaviləsi imzalanıb

***Yanvarın 25-də BDU ilə Özbəkistan Elmlər Akademiyasının Mirzə Uluqbəy adına Astronomiya İnstitutu arasında əməkdaşlıq müqaviləsi imzalanıb.***

Müqaviləni BDU-nun rektoru Elçin Babayev və Özbəkistan Elmlər Akademiyasının Mirzə Uluqbəy adına Astronomiya İnstitutunun direktoru Şuhrat Ehgamberdiev imzalayıb.

Mərasimdə çıxış edən BDU rektoru Elçin Babayev qeyd edib ki, Özbəkistan Elmlər Akademiyasının Astronomiya İnstitutu ilə əməkdaşlıq astronomiya sahəsində təcrübə, bilik mübadiləsi, beynəlxalq əməkdaşlıq, kosmosun tədqiqi üçün unikal imkan yaradacaq. Bu tərəfdaşlıq birgə elmi layihələrin hazırlanmasına, iki qurumun alimləri və tələbələri arasında təcrübə mübadiləsinə, eləcə də astronomiya sahəsində təhsil proqramlarının yaradılmasına töhfə verəcək. Özbəkistan Elmlər Akademiyasının Mirzə Uluqbəy adına Astronomiya İnstitutunun direktoru Şuhrat Ehgamberdiev isə qeyd edib ki, BDU ilə imzalanan əməkdaşlıq astronomiya və kosmik elmlər sahəsində tədqiqatlara yeni impuls verəcək: “Astronomiya bizim üçün sadəcə elm deyil. Həm Nəsirəddin Tusi, həm də Mirzə Uluqbəy xalqlarımızın mənəviyyatının bir hissəsidir”. Müqaviləyə əsasən, BDU ilə Özbəkistan Elmlər Akademiyasının Mirzə Uluqbəy adına Astronomiya İnstitutu astronomiya və kosmik elmlər sahələrində birgə elmi tədqiqatlar həyata keçirəcək. Müqavilə həmçinin iki qurum arasında elmi mobilliyin inkişafı, magistr, doktorant, tədqiqatçı, akademik və inzibati heyətin mübadiləsini nəzərdə tutur.

# “Gənc istedadlar” liseyinin şagirdlərinin beynəlxalq uğuru

***Yanvarın 12-də BDU-nun nəzdində “Gənc istedadlar” liseyinin 70 şagirdi Amerika Riyaziyyat Olimpiadasının (American Math Olympiad) qalibi olub.***

İbtidai, orta və yuxarı sinif şagirdləri üçün nəzərdə tutulan beynəlxalq riyaziyyat müsabiqəsində liseyin şagirdlərindən 25-i qızıl, 21-i gümüş, 24-ü isə bürünc medal qazanıb. Şagirdlərdən 4-ü həvəsləndirici yerə layiq görülüb, 13-ü isə iştirakçı sertifikatı ilə təltif edilib.

Şagirdlərimizi təbrik edir, uğurlar arzulayırıq!

**Buraxılışa məsul:**
Afaq Sadıqova

**Redaksiya heyəti:**
Əliş Ağamirzəyev
Vüqar Əliyev
Cahangir Məmmədli
Qulu Məhərrəmli
Xatirə Hüseynova
Samir Mirzəyev
Günel Orucəliyeva

**Dizayn - tərtibat:**
Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.

**Çapa imzalanıb:**
31.01.2024
**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:**
(+994 12) 538 42 08